

■ İntiqam Yaşar

## HƏR GÜN BİR AZ UNUTMAQ

Hər gün bir az unutmaq
hər gün bir az ölməkdi.
İndi gülmək, doğrusu,
xətir üçün gülməkdi.

Bəzən, unutmaq olmur
ən kiçik zərrəni də.
Xatirələrə xatir
unutmuram səni də.

Sən də unutmamısan,
yüz rola gir, qəddar ol.
Alınır da sözdümü?
çox peşəkarsan, var ol.

Axı, mən özüməmmi,
sənə "özün ol" -deyim.
Hansı işığa baxıb,
"getmə"- deyim, "qal"- deyim.

Sənin nə günahın var
nə ittiham edim mən?!
Baş ağrısı olmasın,
sözüydü də dedim mən.

## EVDƏ YOXAM

Qapımı döyən ayrılıq,
Evdə yoxam, evdə yoxam.
Qonağam deyən ayrılıq,
Evdə yoxam, evdə yoxam.

Gördüyüm mənə çoxdumu,
Xoş günüm iti oxdumu,
Döyməyə qapı yoxdumu,
Evdə yoxam, evdə yoxam.

Sənə kim dedi gündə gəl,
Ömür bitəndə sonda gəl,
Haçan çağırsam onda gəl,
Evdə yoxam, evdə yoxam.

Mülkümdən qoparıb məni,
Bu qayğı lap sarıb məni.
Aparan aparıb məni.
Evdə yoxam, evdə yoxam.

Divardakı nəm danışır.
Dam dolusu qəm danışır.
Yerimə qələm danışır,
Evdə yoxam, evdə yoxam.

## BƏLKƏ DƏ

Bəlkə də, bu bir yazıdır,
ürəyimiz qırılmaqçün yaranıb,..
Bəlkə, özü də elə buna razıdır,
ürəyimiz qırılmaqçün yaranıb.

Həyatın gedişinə,
- hərdən yüksəlişinə,
hərdənbir enişinə.
şahidlik etmək üçün.
Bir az ayaqlaşmağa,
sevinclə rastlaşmağa,
qəmlə qabaqlaşmağa.
Bunları görə-görə,
Ürəyimiz yorulmaqçün yaranıb

## QIZ

Yuxuma qonaq gəlmişdin,
Adını unutduğum qız.
Bulaq kimi qaynar olan,
Gözünü qurutduğum qız.

Öz bildiyini sayanda,
Dərd üstümə əl qoyanda,
Dünyada cana doyanda,
Dərdimi ovutduğum qız.

Rast gəldin necə birinə?!
Bağlandın qəm zəncirinə.
Öz yaşamım xatirinə,
Həyatdan soyutduğum qız.